*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journa lof History and Idea*
*ISSN: 2148-2292*
*10 (2) 2023*
*https://doi.org/10.46868/atdd.2023.*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received: 05.10.2023*
*Kabul tarihi |Accepted: 30.10.2023*
*Yayın tarihi |Published: 10.11.2023*

**Ülkər Sərkərova**

https://orcid.org/0009-0009-8431-7059
*Sheki Regional Scientific Center of Azerbaijan National Academy of Sciences, junior researcher, Azerbaijan, ulker.serkerova@mail.ru*

*Atıf Künyesi | Citation Info*

Sərkərova, Ü. (2023). Zaqatalada yaşayan xalqların toy adətləri. *Akademik Tarih ve Düşünce Dergisi, Türkiye-Azerbaycan İlişkilerinin 100. Yılı Özel Sayısı, 10* (2), 697-710.

# Zaqatalada yaşayan xalqların toy adətləri

***Xülasə***

*Məqalədə Azərbaycanın şimal-qərb bölgəsi olan Zaqatalada yaşayan etnik qrupların qız bəyənmə, beşikkəsmə, elçilik, parçabiçdi, nişan, xına, böyük toy, üzaçdı kimi adətləri, mərasimləri təhlil müstəvisinə çıxarılmışdır. Tədqiqat işində M.F.Axundov adına Milli Kitabxana fondunun, Zaqatala Tarix və Diyarşünaslıq muzeyinin, Nizami Gəncəvi adına Zaqatala Rayon Mərkəzi Kitabxanasının, müxtəlif qəzet materialları, yerli sakinlərdən toplanmış məlumatlar, həmçinin, fərqli xalqların adətləri əsasında geniş müqayisələr təqdim edilmişdir. Tədqiqatın aparılmasında müşahidə, müsahibə, müqayisə, analitik metodlarından istifadə olunmuşdur.*

***Açar sözlər:*** *Etnoqrafiya, milli-mənəvi dəyərlər, adət-ənənə, qız bəyənmə, nişan, toy, evlilik*

# Wedding customs of people living in Zagatala

***Abstract***

*In the article, the customs and ceremonies of the ethnic groups living in Zagatala, which is the northwestern region of Azerbaijan, are brought to the level of analysis, such as girl approval, beshikkasme, embassy, pachabichdi, engagement, henna, big wedding, uzachdi. In the research work, extensive comparisons were presented based on the National Library fund named after M.F. Akhundov, the Zagatala Museum of History and Local History, the Zagatala District Central Library named after Nizami Ganjavi, various newspaper materials, information collected from local residents, as well as the*

*customs of different peoples. Observation, interview, comparison, analytical methods were used in conducting the research.*

***Keywords:*** *Ethnography, national-moral values, tradition, girl liking, engagement, wedding, marriage*

## Giriş

Azərbaycanın çoxmillətli xalqı öz tarixi keçmişi, adət-ənənəsi, yemək və geyim mədəniyyəti, musiqisi, incəsənəti, ədəbiyyatı və başqa bir çox sahələri əhatə edən zəngin irsə malikdir. Tarixin müxtəlif dövrlərində xalqın yaddaşında əks olunaraq nəsildən-nəslə ötürülən adət-ənənələr bu günə qədər gəlib çatmasına baxmayaraq bəziləri günümüzdə unudulmuşdur. Azərbaycanın hər bir bölgəsi bu tarixi prosesi yaşatdığı kimi, özünəməxsusluğu ilə də seçilir. Azərbaycanda müxtəlif xalqların nümayəndələrinin daim sülh və qardaşlıq şəraitində yaşadığı, bir-birinə qaynayıb-qarışdığı etnik zənginliyi ilə seçilən ərazi vahidlərindən biri də şimal-qərb bölgəsidir.

Azərbaycanın bütün bölgələrində olduğu kimi bu bölgənin də özünəməxsus adətləri, ritualları, mərasimləri, toy və yas ənənələri və s. mövcuddur. Zaqatala rayonu bölgənin etnik fərqliliyi ilə seçilən ərazilərindəndir. Burada Azərbaycan türkləri, avarlar, saxurlar, ingiloylar, ləzgilər, laklar, udinlər, tatar, osetin, gürcü, kürd, yəhudi, talış və s. xalqların milli-mənəvi dəyərlərinin, mədəniyyətinin birləşdiyi, vəhdət təşkil etdiyi bu ərazi öz qədimliyi ilə tarixin səhifələrini bəzəyir.

### 1.Evlilik mərasimləri

Azərbaycanın şimal-qərb bölgəsi öz maraqlı toy adətləri ilə məşhurdur. Bölgədən toplanan materiallar əsasında deyə bilərik ki, burada çoxlu unudulan və ya bu gün icra edilməyən adətlər də vardır. Toy insanların həyatında mühüm ictimai hadisə olmaqla yanaşı, həm də gənclərin xoşbəxtliyinin tərənnümü baxımından olduqca maraqlı hadisədir. Toylar bir neçə prosesləri və ya mərhələləri olan, insanların əhval-ruhiyyəsinə yüksək təsir göstərən el şənlikləridir. "Toy sadə proses olmayıb çoxlu adət və ənənələrlə müşayiət olunan, qız bəyənmədən başlamış gəlinin ər evində üzə çıxmasınadək davam edən bir

neçə mərhələni özündə birləşdirən mürəkkəb mərasimdir. Azərbaycanda evlənmək prosesi bir neçə mərhələdən ibarət olmuşdur: qız bəyənmə, elçilik, nişan və toy şənliyi" (Azərbaycan etnoqrafiyası, 2007). Azərbaycanın hər yerində evlilik mərasimi "qızbəyənmə" ilə başlayırdı.

**2.Qızbəyənmə mərasimi**

Evlilik yaşına çatan, ailə dolandırmaq iqtidarında olan oğlanı evləndirmək ana-atanın ən böyük arzusu sayılırdı. Qız bəyənərkən onun ağlı, mərifəti, gözəlliyi, qədd-qaməti, sadəliyi, evdarlığı, işgüzarlığı və başqa bu kimi müsbət keyfiyyətləri nəzərə alınırdı. Azərbaycanda, adətən, qız ərə veriləndə rəyi soruşulmurdu. Kübar ailələrdə isə, qızın rəyi soruşulur və çox vaxt əsas götürülürdü. Azərbaycanda kübar dairələrdə keçmişdə "qızgörmə", "qızbəyənmə" adəti ilə yanaşı, qız tərəfindən "oğlangörmə", "oğlanbəyənmə" adəti də olmuşdur (Azərbaycan etnoqrafiyası, 2007). Adət-ənənəyə görə, elçilər qızın anası tərəfindən hörmət və izzətlə qarşılanırdılar. Çünki elçi Allah elçisi sayılırdı. Qızı vermək niyyətləri olmasa belə, elçiyə ehtiram göstərmək, onu ləyaqətlə qəbul edib, yola salmaq hər bir ailənin borcu hesab edilirdi (Azərbaycan etnoqrafiyası, 2007).

Müqayisə üçün dünyanın müxtəlif xalqlarının qızbəyənmə adətlərinə nəzər salaq. Məsələn, Yeni Qvineyada sevgi münasibətlərinə adi bir şey kimi baxırdılar. Ölkənin gəncləri öz məhəbbətlərini qızların üzünü sığallamaqla bildirirdilər. Bunu, onlar bəzəkli ağac yarpaqları ilə edirlər. Bu, oğlanın öz qəlbini qıza açması üçün bir işarədir. Burada çox vaxt oğlanı qızlar seçir.

Cənubi Afrikanın Xaroti adlı qəbiləsində isə oğlanı qızlar rəqs zamanı seçirlər. Bəzən elə olur ki, seçilən oğlanların üstündə qızlar yumruqlaşır. Onlar dəri əlcəkləri və sümük üsküklәri əllərinə keçirərək, dalaşma zamanı həmin əşyalardan istifadə edirlər.

Başqa bir hind qəbiləsində ciddi adətlər vardır. Gənclər meşədə tonqal qalayır. Sonra sevən qız sınaq üçün tonqalı yandıranın yanına gəlir və odlu közü

oğlanın yanağına yapışdırır. Əgər bu zaman əzab çəkən oğlan qışqırmazsa, deməli o, axıra qədər sevgilisinə sadiq qalacaqdır. Britaniya Qvianasında isə başqa bir adət vardır. Gənc oğlan sevdiyi qızın ata-anasının yanına elçi gedir. Subaylığın acınacaqlı və dözülməz olduğundan danışır. Qarşıda oturan valideynlər isə oğlanın dərdinə qaldıqlarını və razı olduqlarını bildirirlər. Bu zaman qız içəri girir, əlindəki şirni qabını atasına və elçi gələn oğlana təklif edir. Bununla da o, öz razılığını bildirir.

Ölkədə daha başqa bir adət vardır. Qız həddi-buluğa çatmamışsa ailədəki qarımış, yaxud da boşanmış böyük bacılardan birini kiçiyi böyüyənədək oğlana verirlər. Kiçik qız böyüyüb nişanlısına ərə gedəndən sonra bacı həmin evdə kənizlik edir. Benqal qəbiləsində nişanlı oğlanın atası, qızın atasına bambuq ağacından kəslmiş çubuq gətirməlidir. Güya ailə xoşbəxtliyi həmin çubuqdadır. Qızın atası çubuğu alarsa, bu kəbinə razı olmaq deməkdir. Beləliklə, Azərbaycanda qızbəyənmə müxtəlif ölkələrdən və xalqlardan tamamilə fərqli formada, özünəməxsusluğu ilə seçilən xüsusi mərasimdir.

**3.Elçilik mərasimi**

Azərbaycanın toy adətlərindən biri də elçilikdir ki, bütün bölgələrdə olduğu kimi Zaqatalada da toyun mərhələləri eynilik təşkil etsə də, toy adətlərində fərqliliklər mövcuddur. Məsələn, Zaqatalanın Əliabad kəndində bəzən elçilikdən əvvəl qız evinə söz göndərilir, ağsaqqalların müşayəti ilə qız istənilir, beh verilir bu prosesə "Söz qoydu" deyilirdi. Bəhmətli, Yolayrıc, Qımır, Mamrux, Paşan, kəndlərində elçiliyə el içində xüsusi hörmət qazanmış, sözü keçən adamlar göndərilir, toydakı bütün mərhələlərə ağsaqqal, evin, nəslin yaşlı nümayəndəsi rəhbərlik edirdi. Bəzən evdə yaşlı adam yoxdursa, nəsildə olan digər şəxsə əmiyə, dayıya, nəslin ən yaşlı adamına müraciət olunurdu. Faldarlı kəndində isə elçilikdən sonra təmtəraqlı şəkildə "Xana"- böyük elçilik mərasimi keçirilirdi. Mərasim zamanı qız toyu üçün qız evi oğlan evindən müəyyən miqdarda pul və ya ət-yağ və s. "başlıq" adlandırdığımız xərclik tələbi irəli sürürdü. Başqa cür bu xərclik "mehir", "atalıq pulu", "süd pulu" da adlanır. Qımır kəndində əvvəllər

gəlinə mehir üçün 500-1000 manat civarında gümüşdən “taxta kəmər” verirdilər. Ümumiyyətlə, Zaqatalanın elçilik mərasimləri ümumazərbaycan kontekstində araşdırılarkən elə də böyük fərqlər müşahidə edilmir.

**4.Nişan mərasimi**

Zaqatalada elçilik mərasimindən sonra nişan mərasimi təşkil olunurdu. Nişan mərasimi zamanı qız evinə ənənəvi olaraq üzük, baş örtüyü, şirniyyat aparılırdı. Bəhmətli kəndində əvvəlcə qızıl üzük, bir dəst libas alınır, sonra şirniyyat hazırlanırdı. Qeyd edək ki, Zaqatala və ətraf kəndlərdə toy adətlərinin hər birində düyü unundan hazırlanmış halva ən sevimli şirniyyat hesab edilirdi. Avarlar bu halvaya “baxox” deyilir (Region Folkloru Antologiyası, 2018). Muxax kəndində toyun birinci və ikinci günündə düyü halvası bişirilib qohum-qonşuya, toya gələnlərə verilirdi. Bu düyünün unu mütləq dingdə döyülməli idi. Bundan əlavə nazik ovma, şirin çörək və s. şirniyyat növləri də süfrələri bəzəyirdi.

Oğlan tərəfin yaxın qohumları nişana dəvət olunur, onlar da gəlinləri olacaq qıza donluq parça və s. alır və nişan günü hədiyyə verirdilər. Qandax kəndində nişan üçün dəvət olunan hər kəs qız evinə aparılacaq xonçanın içinə öz adlarını yazıb qoyurdular. Gəlin olacaq qız nişan müddətində qonaqların yanında oturmaqdan həya edir, otağından çıxmırdı. Oğlan evinin adamları xonçanı qızın otağına aparıb qoyur, gəlinlə görüşür, onlar üçün açılmış süfrədə yeyib-içir, danışıb-gülürdülər. Oğlan evi evlərinə qayıtmamışdan əvvəl yenidən gəlinin yanına qayıdırdı. Burada gəlin üçün gətirilmiş hər bir hədiyyə açılaraq iştirakçılara təqdim olunurdu (Rəhimova ve Məmmədova, 2018). Nişan mərasimindən sonra toy hazırlıqları başlayırdı.

**5.Toya hazırlıq**

Qız evi cehizlik üçün yorğan-döşək salır, toxuma-tikmə işlərini tamamlayır, yeni ailənin gələcək məişəti üçün qab-qacaq və s. tədarük edirdi. Oğlan evi də öz növbəsində gəlin üçün qızıl zinət əşyaları, geyim-kecim tədarük edirdi. Nişandan təxminən 6 ay, bir il sonra ənənəyə uyğun olaraq oğlan və qız evi axund və el

ağsaqqalları ilə məsləhətləşdikdən sonra razılaşıb toy şənliklərinin günlərini müəyyən edirdilər.

Toya bir həftə qalmış qohum-əqrəba yığışar, nişandakı kimi şirniyyat hazırlayır, kənd əhlini dəvət etmək üçün hazırlıq edirdilər. Zaqatalanın Bəhmətli kəndində dəvət üçün iki-üç oğlan uşağı ayırd edilir və o, qapı-qapı gəzib hamını toya çağırırdı. Fındıqlı, Aşağı Çardaxlar, Tala kəndində toy başlamamışdan bir neçə gün qabaq atları rəngli parçalarla, al-əlvan kəlağayılarla bəzəyirdilər. Atlının biri qız, biri oğlan olurdu, bütün kəndi toy evi adından dəvət edirdilər. Tala kəndində 80-cı illərədək atlılar belə səslənirdi: Bugün xına var, sabah ətlik, birisi gün toy! Bu ənənəvi çağırış forması idi. Göyəm kəndində isə toya dəvət belə olardı: "Sabah hörmət aparırıq, biri gün toydur, daha biri gün gəlin oynayacaq" (Rəhimova ve Məmmədova, 2018). Zaqatala toylarının fərqli cəhətlərindən biri də toy-düyün şənliklərindən əvvəl gəlin köçəcək qız növbə ilə qohum-əqrəba tərəfindən qonaq çağırılırması idi. Məsələn, Muğanlı kəndində toya bir həftə qalmış nişanlı qızı yengəsi evlərinə aparır və hər gün bir qohumu qızı qonaq çağırırdı. Yalnız sonuncu gün-"xına gecəsi günü" qız evinə gedirdi.

"Qeyd edək ki, bölgənin avar kəndlərində toydan bir ay əvvəl qızı hər cür ev işindən azad edirdilər. Qız növbə ilə öz qohum-qardaşıgilə, rəfiqələrinə qonaq gedirdi. Hamıya baş çəkdikdən sonra o, evdən çölə çıxmır, ev-həyət işlərini görmürdü. Buna yarızarafat "kaxsi tun" ("ağarmağa qoymaq") deyilirdi. Rəfiqələri onun başına yığışır, birlikdə nişanlısı və yeni qohumları üçün hədiyyələr hazırlayırdı. Müxtəlif tikmələr, çantalar, örtüklər, corablar, səhəng üçün qayış və s. toxuyurdular" (Region Folkloru Antologiyası, 2018). Azərbaycanda "xına" mərasimindən əvvəl keçirilən və qız evində təşkil olunan toy mərasimlərindən biri "paltarkəsdi" adlanırdı.

**6.Parçabiçdi mərasimi**

Şirvan bölgəsində bu mərasimə "bazarlıq" deyilir. Günün ikinci yarısında musiqi sədaları altında gəlin üçün alınmış pal-paltarı sandığa, şirni-xuşkəbər və ərzaq məhsullarını isə zənbillərə yığıb qız evinə aparırdılar. Zaqatala və onun

kəndlərində isə “paltarkəsdi” mərasimi “parçabiçdi” adı ilə geniş yayılmışdır. Qımır kəndində “Parçabiçdi” mərasimində toya 2 gün qalmış oğlan evi çoxlu pay-pürüşlə qız evinə gedirdi. Payların əksəriyyəti gəlinin qarderobu üçün növbənöv parçalardan ibarət olurdu. Həm oğlanın yaxınları, həm də dəvət olunan hər kəs hədiyyəlik parça gətirirdi. Qımır kəndində gələnlərin 90 %-i evdən qayçı götürür, gedib o parçanın küncündən kəsirdilər. Daha onu geri qaytarmaq olmurdu. “Parçabiçdi” adı oradan gəlir. Gəlin o paltarı biçib geyinməli idi. “Yuxarı Çardaxlar, Muxax, Qandax və başqa kəndlərdə “parçabiçdi”də 30-40 nəfər qadın qız evinə gedir, bütün hədiyyələr ortalığa tökülür, bir-bir müqayisə edilir, ən gözəl parça seçilir, gəlinin toyda geyinməsi üçün ayrılırdı. Parçabiçdiyə gətirilmiş dərzi bu parçanı gəlinin istəyinə uyğun biçərdi. Dərzi parçanı kəsmək üçün qayçını əlində tutur və deyirdi: “Ay qızlar qayçı kəsmir”, bu zaman gəlinin yengəsi dərziyə nəmər (pul) verirdi” (Rəhimova ve Məmmədova, 2018). “Göyəm kəndində toydan əvvəlki gün qız evinə gedən pay-pürüşü hörmət adlandırırdılar. Qeyd edək ki, bu bölgədə gəlinə qızılla yanaşı, gümüş, üzəri bahalı qaşlarla bəzədilmiş zinət əşyaları verilirdi. Burada geniş yayılan adətlərdən biri oğlan evinin gəlin üçün “tavat kəmər” hədiyyə etməsidir. Bölgədə yaşayan avarlarda gəlinə böyük ipək şal, qızıl suyuna çəkilmiş gümüş tac gətirirdilər” (Region Folkloru Antologiyası, 2018). Toy şənlikləri adətlərindən biri də qız evində icra olunan xınayaxdı mərasimi idi.

**7.Xınayaxdı mərasimi**

Qız toyunun əvvəlki günü xına gecəsi olurdu. Cavan qızlar 30-50 nəfər yığılır, oxuyur, oynayır, əllərinə xına yaxırdılar. Mazıx kəndində qız toyundan bir gün əvvəl axşam cavanlar, oğlan evindən gələn qonaqlar, qızın rəfiqələri yığılıb zurna-nağarayla şənlənirlər, çantalar tikib hazırlayırlar. Mazıx və digər kəndlərdə toyda paylanacaq “çantaların” hazırlanmasına xüsusi diqqət verilirdi. Qızın rəfiqələri parçadan xırda, üçkünc tikib, onu muncuqlarla bəzəyib çantalar hazırlayıb, oğlan tərəfdən gələn qonaqların yaxasına taxırdılar. Bu çantaları toy

iştirakçılarına paylayır, gəlini aparan atın çulundan, gəlin otağında güzgüdən, toyda çalınan tamburun qolundan asırdılar (Region Folkloru Antologiyası, 2018).

Muğanlı kəndində həyətdə əkilən xınanı oğlan yengəsi döyüb hazırlayırdı. Yolayrıc, Muxax və digər kəndlərdə oğlan evi xınanı çalğıçıların müşayiəti ilə qız evinə gətirirdilər, qızın əllərinə və ayaqlarına xına yaxılırdı. Bütün qohumlar qıza parça, yaylıq hədiyyə verirdilər. Qız da bütün cehizini açırmış, gələnlər qızın əl işinə baxıb qiymət verirdilər. Xına gecəsi oğlan tərəfdən gələnlərə xüsusi hədiyyələr verilirdi, el adəti üzrə "Salam-əlik" nəğməsini oxuyub oynayırdılar.

*Hamam çoxdur nənəcan,*
*Su soyuqdur nənəcan,*
*Yaylığım yoxdur nənəcan,*
*Nənə sənə qurban olsun,*

**8.Toy mərasimi**

Zaqatalanın toyları ümumazərbaycan toyları ilə oxşar olsa da, fərli xüsusiyyətləri ilə də seçilirdi. Məsələn, Göyəm kəndində toydan əvvəlki gün qız evinə gedən pay-pürüş göndərilirdi. Buna "hörmət" deyirdilər. Fındıqlı kəndində oğlan tərəfin adamları nağara-zurnanın müşayiəti ilə böyük sinidə düyü halvası gətirirdilər, bütün gənclər gəlinin başına toplaşırdılar, səhərə kimi çalıb oynayırdılar. İnformatorlardan əldə etdiyimiz məlumatlara görə, Bəhmətli kəndində toy tədarükü üçün qız evinə 80-100 kq heyvan verilirdi. Tala kəndində qoçla yanaşı, düyü-yağ və başqa ərzaqlar da verilirdi. Qımır kəndində qız oğlan toyu bir gündə olurdu. "Səhər qız evində başlayan toy günortadan sonra oğlan evində davam edirdi. Qız toyunda qadınlar cehiz əşyalar hədiyyə edirdilər" (Rəhimova ve Məmmədova, 2018).

**9.Kəbin mərasimi**

Toy-düyün prosesinin adət-ənənələrlə zəngin mərhələrindən biri də qızın gəlin köçürülməsidir. "Gəlin gətirilən gün oğlan evində toy xörəyi üçün ertədən tədarük görülürdü. Qız evində isə gəlinin cehizinin siyahısı tutulurdu. Cehiz siyahıya alındıqdan sonra kəbin kəsilməsinə başlanırdı"

“Dardoqqaz kəndində oğlan toyunda qızla oğlan bir yerdə gəlir, məclisdə nigah bağlanır, nişan üzükləri taxılır, sonra rəqs edilirdi” (Rəhimova ve Məmmədova, 2018). “Mamrux kəndində toyun başlamasına 5 gün qalmış kəbinkəsmə mərasimi keçirilirdi. Kəbin kəsilən zaman hardasa 50-yə yaxın yaşlı adamın iştrakı və kənd mollasının iştirakı ilə mərasim keçirilirdi. Bəy və qız tərəfin vəkili camaatın qarşısında bir sıra şərtləri qəbul etdiklərini bəyan edirdilər. Kəbin kənd ağsaqqallarının şahidliyi əsasında kəsilirdi. Kəbin kəsilən zaman şirinlik halvası çalınır və hamıya paylanırdı. Dualar oxunurdu. Təzə evlənən cütlüyə hamı dua edirdi” (Rəhimova ve Məmmədova, 2018). Yengiyan kəndində həmin gün “nigahaşı günü” adlanırdı, nigah kəsildikdən sonra aş bişirilirdi və kəndin hər yerindən gəlib həmin aşdan yeyirdilər.

“Yengiyan kəndində növbəti gün “Mözənəklər günü" olurdu. Qızın ata və ana tərəfindən bir nəfər olmaqla, iki kişi xeylağı Mözənək seçilirdi, onlar oğlan evinə gedirdilər, orada onlara bəyin sağdişi və soldişi təhkim edilir, hörmət qoyulur, xətirləri xoş tutulur, ağızlarından çıxan bütün istəklər yerinə yetirilirdi. Mözənəklər adəti Qandax kəndində də olmuşdur. Qeyd edək ki, sağdiş bəyin ata tərəfi, soldiş ana tərəfindən olurdu. İndi də bu adət qalmaqdadır, toydan bir gün əvvəl qızın mözənəkləri oğlan evinə gedir, 3-7 gün orda qalırdılar. İndi də bu adət icra olunur, lakin əvvəlki kimi 3-7 deyil, 1gün qalırlar. Səhəri gün oğlan evinin karvanı gəlini aparmağa gələndə qız karvana baxırdı, orada mözənəkləri görsə idi, ərə getməyə razı olurdu, yox əgər görməsəydi, ərə getməkdən imtina edirdi” (İnformator, Yengiyan kənd sakini, Əliyev Maarif 1953-cü il). Oğlan toyu qız toyundan daha təmtəraqlı və təntənəli təşkil olunurdı. Zaqatala ərazisində toy şənliyindən öncə “bəy durdu” mərasimi keçirilir, burada musiqinin müşayəti ilə bəy tərif olunur, bəyə və onun yançılarına rəngli xara və puldan ibarət hədiyyələr təqdim edilirdi. Bu adət Azərbaycanın müxtəlif bölgələrində “bəy durma”, “bəy oturma” və “bəy başı” da adlanırdı (Azərbaycan etnoqrafiyası, 2007). Zaqatala ərazisində, eləcə də Şəki və Qax ərazilərində Azərbaycanın digər ərazilərindən

fərqli olaraq bu adət toyun sonunda deyil, əvvəlində keçirilirdi. İnformatorlardan əldə etdiyimiz məlumatlara görə, Tala kəndində bəy tərifi adəti olmayıb. Makov kəndində bəy yastıq bəzədilmiş taxtda yançılarla (sağdiş, soldiş) otururdu və musiqi çalınırdı. Bütün qonaqlar bəyin əlinə pul verirdilər. Bəhmətli kəndində "bəy durma" mərasiminə gələn qadınlar şax bəzədib üstünə bəyin boynuna salmaq üçün aldıqları baş örtüyünü salıb əllərində gətirirdilər. Yolayrıc kəndində digər kəndlərdən fərqli olaraq şax gəlin üçün xüsusi hazırlanırdı. Kişilər isə bəyə kömək üçün erkək qoyun kəsirdilər. Toyda çardaqçı adlanan adam gətirilən şaxları çardağa qoyar, sonra bəy duran vaxtı həmin şaxları yiyələrinə verirdilər.

Bəy tərifindən sonra oğlan evi gəlin gətirmək üçün qız evinə yollanırdı. Kənd yerlərində gəlini at arabası yaxud at ilə aparırdılar. Bizə belə gəlir ki, el arasında gəlinin ər evinə köçməsi üçün işlədilən "gəlin atlanması" ifadəsi də gəlinin atla aparılması ilə əlaqədar deyilmişdir (Azərbaycan etnoqrafiyası, 2007). Məsələn, Muğanlı kəndində atı gözəl bəzəyir, alnına qəşəng havoğ qoyurdular. Atın sağ tərəfinə oğlan, sol tərəfinə qız evi kələğayı bağlayırdı. Gəlinin başında da, kələğayı olmalı idi.

Muxax kəndində gəlinlə bərabər qız evindən oğlan evinə "qatar" getməliydi. Buna "qetor" deyirdilər. Biri "sandıqüstəgedən", biri "atbaşıçəkən", biri "güzgügötürən" adlanırdı. Oğlan evi qız evi üçün mütləq 7 cür yemək düzürdü, hətta siqaret də qoyurdular. Qız evindən gələn düyü halvasından bir badya gəlin-bəy üçün bəy otağına qoyulurdu, qalanı "qatar"da gələnlərə təxminən bir kasa boyda verilirdi, həmin pay düyü halvası "kütlə" adlanırdı. Bəzən də bir cüt corab və ya əl yaylığı kimi xırda şeylər hədiyyə edilirdi (İnformator, Muxax kənd sakini, Hacı Novruz 1937-ci il).

Zaqatala ərazisində çox vaxt gəlini axşam tərəfi gətirirdilər. Gəlini gətirməyə bir çox kəndlərdə bəy yox, bəyin atası gedərdi. Paşan kəndində gəlini evdən bəyin atası çıxarırdı və oğlan evinə gətirirdi. Gözbarax kəndində gəlin evə gələndən sonra bəy gəlinin qabağına çıxırdı, əlində tutduğu konfeti gəlinin başına tökürdü. Yuxarı Çardaxlar kəndində gəlini düşürəndə gəlin oğlan evinin adamlarının

təqdim etdiyi qiymətli məcməyidə ya xəngəl kəsir, ya xəmir eşirdi ki, gələcəyə nişan qalsın. Bu adətə digər kəndlərdə rast gəlinməmişdir (İnformator, Yuxarı Çardaxlar kənd sakini, Yusif Mustafayev 1941-ci il). Zaqatala toylarında tənbur, 7 nağaradan eyni anda ifa olunan ritmlər, zurna, kos və qursiklər (kiçik ölçülü nağaradır, çubuqdan fərqli aləti barmağa keçirib, sonra qatlanıb çalınır) toylarda maraqla qarşılanırdı. "Zaqatala xınayaxdıları, toyları vaxtiylə əvvəldən sonadək tənbur musiqi aləti ilə aparılmışdır. Məsələn, "Məhərrəmkəndi" və ya "Gəlinağladan" havası gəlini ata evindən çıxaranda ifa edilirdi" (Məsimova, 2014). Əliabad, Bəhmətli, Tala, Kəpənəkçi, Yolayrıc, Aşağı Çardaxlar, Mazıx, Paşan, Mamrux, Muxax, Fındıqlı və s. kəndlərdə toy şənliyi qara zurna, ney, balaban, kiçik nağara və böyük kosun sədaları altında davam edirdi. Tala kəndində qara zurna-kos (yekə nağara) cümə günü günortadan sonra səslənməyə başlayır, şənbə, bazar günü sərasər çalğı davam edirdi. Bəhmətli kəndində şənbə günü səhər saat 5 radələrində başlanan toy Faldarlı kəndində "Səhər havası" deyilən musiqi ilə çalınmağa başlanardı, gecə saat 3-4 ə kimi davam edirdi. Zaqatala toylarının əksəriyyətində toyu aparmaq üçün yaxşı bir oyunçu, başçı və ya rəhbər təyin olunardı, əlində qamçı və ya çubuq uşaqları ortalıqda qaçmağa qoymur, toya gələnləri növbə ilə rəqsə dəvət edirdi. Onun icazəsi olmadan heç kim özbaşına rəqs edə və ya oyun havası sifariş edə bilmirdi. İnsanlar milli musiqi sədaları altında iki-iki, əsasən, bir oğlan, bir qız yaxud bir kişi, bir qadın rəqs edirdilər. Qandax kəndində toy məclisləri Koroğlu cəngisi ilə yekunlaşırdı. Əgər cəngi çalınarsa, toyu idarə edən yenidən başqa havanın çalınmasına icazə vermirdi.

**10.Üzəçıxdı mərasimi**

Toyun səhəri günü "Üzəçıxdı" mərasimi keçirilirdi. Bəhmətli kəndində toy gününün səhəri qız evindən bəyə və gəlinə xüsusi olaraq bəy aşı adlandırdığımız toyuqlu aş bişirirlər. Günorta yeməyini qızlar, gəlinlər oğlan evinə aparardılar. Oğlan da aşı yeyib sonra onun boşqabına pul qoyardı. Həmin gün kim bəyin

ayaqqabısını, papağını gizlindən aparıb gəlinə versə, bəyin sağ dişi cərimə verərdi.

Zaqatalanın Bəhmətli, Faldarlı, Muxax, Makov, Dardoqqaz, Mazıx kəndlərində isə toyun üçüncü günü "üzə çıxdı" mərasimi olurdu. Bu el adəti çox yerdə "üç gün" adlanırdı. "Üç gün" də oğlanın anası xörək hazırlayar və yaxın qohum və qonşu qadınları "gəlin gördüyə" dəvət edirdi (Azərbaycan etnoqrafiyası, 2007). Zaqatala ərazisində də bu mərasim "üzaçdı" adı ilə keçirilirdi. Muxax kəndində gəlin gələndə gətirdiyi düyü halvasının qalanını səhər üzaçdıya gələnlərə yumru quru kütlə halında paylayırdılar. Bəhmətli və Faldarlı kəndlərində gəlin üzüörtülü səhərdən ev-eşiyi süpürür, silir, sonra somovar qaynadırdı. Makov kəndində bəyin atası gəlinin kəlağayısını açıb onun ağzına bal-çörək qoyur, bununla da məclisdəkilər yeyib-içməyə başlayırdılar. Dardoqqaz kəndində digər kəndlərdən fərqli olaraq "gəlin atlanan" gün yox, "üzaçdı" günü qonaqlar gəlinin əlindən bal-yağ yeyər və gəlinə nəmər verirdilər. Mazıx kəndində "üzaçdı" mərasimində də gəlin və bəyin iştirakı ilə çalıb-oynamaq davam edir, şirinlik rəmzi kimi bəy gəlinin əlindən, gəlinsə bəyin əlindən halvanı çıxarıb yeyirdi. Onu möhkəm barmaqlar arasında tuturdular ki, çətin çıxarsın. Yengiyan və Bəhmətli kəndlərində bütün qonaqlar xonça tutub gəlirdilər. Xonçanın baş hissəsinə pul qoyulurdu, buna "xon" deyilirdi. Məclisdə hamının adı çəkilib, xonun məbləği elan edilir, xonçanın içindəkilər paylanırdı. Bir nəfər isə bütün xonları, yəni pulları yığıb gəlinə verirdi. Kəpənəkçi kəndində toy 3 gün olurdu, 3 gün çal-çağır davam edirdi. Toya çağrılan insanlar əllərində xonçalarla məclisə girirdilər. Hamı öz xonunun (xonçanın) rəngarəngliyi ilə fəxr edirdi.

Ümumiyyətlə, Zaqatalada toy-düyün zamanı müxtəlif idman yarışları, oyun və əyləncələr təşkil olunurdu (Azərbaycan etnoqrafiyası, 2007). Məsələn, Yuxarı Çardaxlar kəndində gəlin gətirənlər silahları ilə oğlan evi tərəfindən əvvəlcədən hazırlanmış nişangahdakı nişanı vurub salmalı idilər. Paya üstündəki almanı, ya da soğanı vurub yerə salan atəşin sayı qədər ayaqlarının altına qoç kəsirdilər.

Göyəm kəndində toyda həm rəqs edərək, həm də döyüşərək əylənirdilər (İnformator. Göyəm kənd sakini, Qədirov Nadir, 1946-cı il). Məqalədə Zaqatala və kəndlərinin toy adətləri ilə bağlı yeni tarixi və etnoqrafik faktlar aşkar edilərək sistemləşdirilmiş və elmi müstəvidə təhlillər aparılmışdır.

**Nəticə**

Xalqın tarixi yaddaşını, milli-mənəvi dəyərlərini əks etdirən adət-ənənələr genetik kodların ötürülməsi baxımından da olduqca mühüm əhəmiyyətə malikdir. Gen yaddaşına hopmuş milli dəyərlərin hər biri Azərbaycanın fərqli bölgələrində bu və ya başqa formada bir-birilə əlaqəli şəkildə özünü göstərməklə yanaşı, fərqlilikləri ilə də seçilir. Bu baxımdan Zaqatalanın toy adətlərinin özünəməxsus xüsusiyyətləri Azərbaycanın milli-mənəvi dəyərlərinin zənginləşdirilməsi, xalqın tarixi yaddaşının qorunub gələcək nəsillərə ötürülməsi üçün əvəzsiz əhəmiyyətə malikdir.

**Ədəbiyyat siyahısı**

*Azərbaycan Etnoqrafiyası.* (2007). (3 cilddə) II cild. Şərq-Qərb.

İnformator: *Göyəm Kənd Sakini* Qədirov Nadir, 1946-Cı İl.

İnformator: *Muxax Kənd Sakini* Hacı Novruz, 1937-Ci İl.

İnformator: *Yengiyan Kənd Sakini* Əliyev Maarif, 1953-Cü İl.

İnformator: *Yuxarı Çardaqlar Kənd Sakini* Yusif Mustafayev, 1941-Ci İl.

Məmmədli, A. (2009). *Şimal-Qərbi Azərbaycanın arxeologiyası və etnoqrafiyası.* Bakı.

Məsimova, Z. (2014). *Zaqatala aşıq mühiti.* Bakı.

Region Folkloru Antologiyası *(Qax, Zaqatala, Balakən rayonlarından toplanmış folklor örnəkləri).* (2018). Elm və təhsil.

Cilt:10 / Sayı:2
Kasım 2023

Rəhimova, S., Məmmədova, G. (2018). *Zaqatala rayonunun ayrı-ayrı kəndlərinə məxsus qədim adət-ənənələr. (Məlumat toplusu)*. Zaqatala rayon N.Gəncəvi adına Mərkəzi kitabxana.